## Bu il FHN-in nəzarət etdiyi çimərliklərdə suda boğulma halı olmayıb



**Bu il çimərlik ərazilərində suda boğulma halı qeydə alınmayıb.**

Bu barədə Fövqəladə Hallar Nazirliyində (FHN) keçirilən müşavirə zamanı Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin açıqladığı hesabatda bildirilib.

Bildirilib ki, bu, çimərliklərdə, su hövzələrində və digər sututarlarda, dənizkənarı kütləvi istirahət yerlərində axtarış-xilasetmə tədbirlərini, habelə dalğıc-axtarış işlərini, insanların sularda təhlükəsizliyinin təmin edilməsi vəzifəsini həyata keçirən Xidmətin səmərəli fəaliyyəti sayəsində mümkün olub.

## Azad olunan ərazilərdə ötən ay 3042 mina aşkarlanıb



**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra olunan əməliyyatlar barədə aylıq məlumat açıqlayıb.**

ANAMA-dan verilən məlumata görə, avqust ayı ərzində Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl, Laçın və Zəngilanda 2353 piyada əleyhinə mina, 689 tank əleyhinə mina və 1161 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb.

Bildirilib ki, 5523, 74 hektar ərazi mina və PHS-lərdən təmizlənib.


№ 157 (5679), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 2 sentyabr 2022-ci il (cümə)




# KİV nümayəndələri Laçın rayonunun Sus kəndinə gedib

### Səfərdə hərbi ekspert, laçınlı hərbi qulluqçular da iştirak edir

**Bir qrup kütləvi informasiya vasitələri nümayəndələri işğaldan azad edilmiş Laçın rayonunun Sus kəndinə səfər edib.**

Səfərdə jurnalistlərlə yanaşı, hərbi ekspert, laçınlı hərbi qulluqçular da iştirak edir.

Media nümayəndələri Sus kəndindən işğal dövründə məhv edilən evlərə baş çəkiblər.

Məlum olub ki, ermənilər tərəfindən Sus kəndində işğal altında qaldığı 30 il ərzində heç bir abadlıq işi görülməyib. Həmçinin yaşı çoxu olan qoz ağacları erməni vandallar tərəfindən məhv edilib.

*Hazırda kənd Azərbaycan Ordusunun nəzarəti altındadır.*



## Avropa İttifaqı regiona dayanıqlı sülh gətirəcək

### Brüssel görüşündə Ermənistan tərəfinin müqavimət cəhdləri nəticəsiz qaldı

**Avqustun 31-də Belçikanın paytaxtı Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü keçirildi.**

Bu, tərəflər arasında növbəti üçtərəfli görüş idi. Ermənistanın müqavimətinə və Brüssel görüşündə real nəticələrin əldə olunmasına mane olmaq cəhdlərinə baxmayaraq, Prezident İlham Əliyev Şarl Mişelin vasitəçiliyi ilə konkret nəticələr əldə etdi. Azərbaycan və Ermənistan Xarici İşlər nazirliklərinin xətti ilə bir ay ərzində sülh razılaşmasının mətni üzərində iş aparılması üçün işçi qrupların yaradılması razılaşdırıldı.

(səh.2)

## Aİ ali komissarı "Twitter" səhifəsində yazıb

### O, İlham Əliyevin Nikol Paşinyan və Şarl Mişellə dördüncü görüşünü alqışlayıb



**Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin dördüncü görüşünü alqışlayıb.**

O, bu barədə öz "Twitter" səhifəsində yazıb. "Sülh müqaviləsinin təşviqi üzrə işləri, humanitar sahədə və kommunikasiyaların açılması sahəsində səylər davam etdirmək vacibdir. Aİ əvvəlki kimi Cənubi Qafqazda dinc, təhlükəsiz və çiçəklənən gələcəyin dəstəklənməsi prosesinə sadiqdir", - o bildirib.

# Tarixi gün...

### İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır



Bu ölkə Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın bir nömrəli siyasi, iqtisadi və ticarət tərəfdaşıdır

**Sentyabrın 1-də Romada Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binasının açılışı olub.**

Açılışda İtaliyada işgüzar səfərdə olan Prezident İlham Əliyev iştirak edib. Dövlət başçısı yeni binada yaradılan şəraitlə tanış olub. Səfirlik binasında İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi də keçirilib.

(səh.2)

# 2400 plan yeri boş qalıb

### Məleykə Abbaszadə uğur qazana bilməyən abituriyentlərin boş qalan yerlərə ixtisas seçmə şanslarının olduğunu bildirib



**"150-200 arası balla müsabiqədən kənarda qalan abituriyentlərin sayı daha çox olub".**

Bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib. DİM rəhbəri qeyd edib ki, bu il bütün qruplar üzrə 200-dən yuxarı bal toplayaraq müsabiqədən kənarda qalan abituriyentlərin sayı ötən illə müqayisədə çox azdır. Məleykə Abbaszadə uğur qazana bilməyən abituriyentlərin boş qalan yerlərə ixtisas seçmə şanslarının olduğunu bildirib: "Təxminən 2400 plan yeri boş qalıb. Həmin yerlər artıq təqdim edilib. 200-dən yüksək nəticə göstərən və uğur qazanmayan abituriyentlər boş qalan yerlərə qəbul üçün seçim etsələr, uğur qazana biləcəklər.

(səh.2)



## Ermənistan artıq sülh gündəliyini qəbul edib

### Paşinyan etiraf edir ki, xalq regionda tezliklə hərtərəfli sülhün bərqərar olmasını istəyir

**Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin iclasında Brüsseldə keçirilən üçtərəfli görüşü şərh edib.**

Baş nazir deyib ki, Ermənistan hökuməti sülh gündəmini qəbul edib və bu gündəmi həyata keçirmək üçün tərəflərdə qətiyyət lazımdır. O xatırladıb ki, görüşdə geniş və çətin müzakirələr aparılıb: "Başa düşməliyik ki, bu, asan deyil, mümkün həll yolları zahirdə görünmür. Ardıcıl işi davam etdirməliyik. Çünki bizim həm qərarımız, həm də xalqın iradəsi ondan ibarətdir ki, regionda tezliklə hərtərəfli sülh bərqərar olsun.

(səh.3)

## Son sutkada ölən olmayıb

### Daha 561 nəfər koronavirusa yoluxub



**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 561 yeni yoluxma faktı qeydə alınıb, 595 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, ölən olmayıb.

İndiyədək ölkədə ümumilikdə 813 998 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 800 722 nəfər müalicə olunaraq sağalıb, hazırda 3 471 aktiv xəstə var. Bu günə qədər 9 805 nəfər vəfat edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 071, bu günə qədər isə ümumilikdə 7 159 317 test icra olunub.

## Neftçalada 7 yaşlı uşaq dənizdə boğulub



**Neftçala sakini, 2015-ci il təvəllüdlü Rüstəmov Əli Rafiq oğlu dənizdə boğulub.**

Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə, Neftçala rayonu, Şirvanlı kəndində, dənizdə ("Neftçala" sularda xilasetmə məntəqəsindən təqribən 600 m aralı, nəzarətsiz ərazidə) 1 nəfər azyaşlının batması barədə məlumat daxil olub.

FHN-in mətbuat xidmətindən verilən xəbərə görə, hadisə yerinə cəlb olunan nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu tərəfindən azyaşlının meyiti sudan çıxarılıb və aidiyyatı üzrə təhvil verilib.



## Razılıq var, iş də görünməlidir

### Avropa İttifaqı Ermənistana təzyiqləri gücləndirməlidir

(səh.3)

## Riyaziyyat hüquqdan önə keçib

Elmin Nuri: "İndi az bal toplayan abituriyentlər müəllimlik ixtisasını seçmək istəsələr də buna balları çatmayacaq"



(səh.4)





# Tarixi gün...

## İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır

**Sentyabrın 1-də Romada Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binasının açılışı olub. Açılışda İtaliyada işgüzar səfərdə olan Prezident İlham Əliyev iştirak edib. Dövlət başçısı yeni binada yaradılan şəraitlə tanış olub.**

Səfirlik binasında İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi də keçirilib. Mərasimdə çıxış edən dövlət başçısı bildirib ki, Azərbaycan və İtaliya gələcəkdə təhsil sahəsində də strateji tərəfdaş kimi fəaliyyət göstərəcək. Ölkə rəhbəri qeyd edib ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, bilik, savad, texnoloji tərəqqi müəyyən edir: ”Biz Azərbaycanda təbii resurslardan əldə edilmiş gəliri insan kapitalına yönəldirik və bugünkü tədbir bunun əyani sübutudur. Eyni zamanda, əminəm ki, İtaliya-Azərbaycan Universiteti İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq. Bir sözlə, hesab edirəm ki, bu gün biz tarixi hadisənin şahidiyik. Bu gün mənim İtaliyaya işgüzar səfərimin birinci günüdür və birinci tədbiridir. Əminəm ki, İtaliya rəhbərləri ilə keçiriləcək görüşlər bizim dostluğumuzu, tərəfdaşlığımızı daha da möhkəmləndirəcək”.

**Prezident vurğulayıb ki, İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır:** ”Mən çox şadam ki, bu binada keçirilən ilk tədbir məhz təhsil sahəsinə aiddir. Bu gün İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır. Təhsil sahəsində biz yeni genişmiqyaslı əməkdaşlığa başlayırıq. İki il bundan əvvəl İtaliyada dövlət səfərində olarkən mən bu təkliflə çıxış etmişdim ki, İtaliya-Azərbaycan Universiteti yaradılsın. İtaliya rəhbərliyi də bunu alqışladı və qısa müddət ərzində artıq biz praktiki fəaliyyətə başlayırıq. Bu ilin aprel ayında Bakıda ADA Universitetinin kampusunda İtaliya Xarici işlər naziri, cənab Luici Di Maionun iştirakı ilə yeni tədris korpusunun təməli qoyuldu. İtaliyanın aparıcı universitetləri ilə ADA Universitetinin əməkdaşlığı iki ölkə arasındakı dostluq əlaqələrini möhkəmləndirəcək”. Dövlət başçısı bəyan edib ki, İtaliya ilə Azərbaycan arasında çox güclü siyasi-iqtisadi əlaqələr mövcuddur: ”İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 9,6 milyard, bu ilin yeddi ayında isə 11 milyard dollara çatıb”.



Bu ölkə Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın bir nömrəli siyasi, iqtisadi və ticarət tərəfdaşıdır

Qeyd edək ki, İtaliyaya səfəri çərçivəsində Prezident İlham Əliyev həmçinin, italiyalı həmkarı Sercio Mattarella və Nazirlər Şurasının sədri Mario Draqi ilə də geniştərkibli görüş keçirib.

**Politoloq Sədrəddin Soltan bildirib ki, Azərbaycan-İtaliya əlaqələrinin yaşı bir əsrdən artıqdır. Ekspertə görə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə də iki ölkə arasında bir sıra sahələr üzrə münasibətlər mövcud olub:** ”Müstəqilliyin bərpasından sonra İtaliya Azərbaycanın müstəqilliyini 1992-ci il yanvar 1-də tanıyıb, diplomatik əlaqələr isə 1992-ci ilin may ayının 8-də qurulub. Bu ölkənin rəsmiləri Azərbaycanın ərazi bütövlüyünü çıxışlarında və görüşlərdə müdafiə ediblər. Bundan əvvəl reallaşmış səfərlər sırasında məzmun və formasına görə ən önəmlisi 2020-ci ilin fevralın 19-21-də həyata keçirilmiş dövlət səfəri olub. Həmin səfər çərçivəsində iki dövlət arasında ümumilikdə 28 sənəd imzalanıb. İmzalanmış sənədlər sırasında ”Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə” müstəsna əhəmiyyət daşıyır. Sənədin bilavasitə Prezident İlham Əliyev və o vaxtkı Baş nazir Cüzeppe Konte tərəfindən imzalanması bu sənədin siyasi yükünün göstəricisi sayıla bilər. Yeri gəlmişkən, bir müddət əvvəl İtaliyada daxili siyasi böhran yaşanıb. Qanunvericilik məsələləri ilə əlaqədar partiyalar arasında konsensusa nail ola bilməyən baş nazir Mario Draqi istefasını elan edib və hökumət vaxtından əvvəl səlahiyyətlərini başa çatdırıb. Ənənəyə görə, müvəqqəti hökumət dövründə İtaliyada xarici rəsmi heyətlərlə görüş keçirilmir. Ancaq hökumətin məhdud çərçivədə fəaliyyət göstərməsinə baxmayaraq Prezident İlham Əliyevin işgüzar səfərinin baş tutması İtaliya tərəfinin Azərbaycanın dövlət başçısı və ölkəmizlə strateji əlaqələrə verdiyi böyük önəmin göstəricisidir. Bu, həmçinin, Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinin İtaliyanın prioritet milli marağı olduğunu nümayiş etdirir”.

**Analitik deyib ki, ölkələrimiz arasında əlaqələr hər zaman yüksək səviyyəsi, çoxşaxəliliyi və nümunəvi dinamikası ilə seçilib:** ”İtaliya Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın bir nömrəli siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. İtaliya ikitərəfli müstəvidə Azərbaycanın strateji tərəfdaşı olmaqla yanaşı, çoxtərəfli müstəvidə də Azərbaycanın sıx əməkdaşlıq etdiyi vacib ölkədir. Xüsusilə, İtaliya Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığının güclənməsinə fəal dəstək verən ölkədir. Azərbaycanın İtaliya ilə strateji tərəfdaşlıq münasibətləri, iqtisadi-ticarət sahəsində əməkdaşlığı xüsusi əhəmiyyətə malikdir. 2022-ci ilin 8 ayında iki ölkə arasında ticarət dövriyyəsinin həcmi11 milyard dollardan çox olub. Azərbaycan da İtaliyanın Cənubi Qafqaz ölkələri ilə arasında ən iri ticarət tərəfdaşıdır. Bölgədə İtaliyanın apardığı ticarətin 90 faizdən çoxu Azərbaycanın payına düşür. Enerji sahəsində əməkdaşlıq yüksək səviyyədədir. Azərbaycan İtaliyanın neft təchizatında birinci, qaz təchizatında isə 3-cü yeri tutur. Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sahələrdə 100-dən çox İtaliya şirkəti fəaliyyət göstərir. Bir sıra şirkətlər işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərində iştirak edir”.

**İsmayıl**

# 2400 plan yeri boş qalıb

## Məleykə Abbaszadə uğur qazana bilməyən abituriyentlərin boş qalan yerlərə ixtisas seçmə şanslarının olduğunu bildirib

**“150-200 arası balla müsabiqədən kənarda qalan abituriyentlərin sayı daha çox olub”.**

Bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib. DİM rəhbəri qeyd edib ki, bu il bütün qruplar üzrə 200-dən yuxarı bal toplayaraq müsabiqədən kənarda qalan abituriyentlərin sayı ötən illə müqayisədə çox azdır. Məleykə Abbaszadə uğur qazana bilməyən abituriyentlərin boş qalan yerlərə ixtisas seçmə şanslarının olduğunu bildirib: ”Təxminən 2400 plan yeri boş qalıb. Həmin yerlər artıq təqdim edilib. 200-dən yüksək nəticə göstərən və uğur qazanmayan abituriyentlər boş qalan yerlərə qəbul üçün seçim etsələr, uğur qazana biləcəklər. 150-200 arası balla müsabiqədən kənarda qalan abituriyentlərin sayı daha çoxdur. Bu bal aralığı üçün təxminən 245 boş yer qalıb”.



“Ali hərbi məktəblərdə oxumaq istəyən kifayət qədər yüksək bal toplamış abituriyentlər var”

**DİM sədri vurğulayıb ki, ali hərbi məktəblərdə oxumaq istəyən kifayət qədər yüksək bal toplamış abituriyentlər var:** ”Xüsusi təyinatlı ali təhsil müəssisələrinə maraq artıb. III qrupa imtahan verən istedadlı gənclər həmin məktəbləri seçirlər. Orada əsas kontingent 500 baldan yuxarı nəticə göstərən oğlanlardır. Heç kimi məcburi hansısa ixtisasa göndərmək olmaz. Onlar öz sahələrini istəyərək seçirlər. Ali hərbi məktəblərdə də oxumaq istəyən kifayət qədər yüksək bal toplamış abituriyentlər var. Bu cür vacib ixtisaslara savadlı insanların maraq göstərməsi müsbət haldır”.

**M.Abbaszadə bəyan edib ki, ali məktəblərə qəbul olan subbakalavrların sayı açıqlanıb:** ”Bu il təxminən 4900 subbakalavr ali məktəbə qəbul olub. Subbakalavrların qəbul göstəricisi əvvəlki illə müqayisədə az olub. Keçən il bu rəqəm təxminən 5300 idi. Bu il qəbul göstəricisi nisbətən azdır. Amma ikinci yerləşdirmədə onların şansları yenə də var. Müvafiq ixtisasları seçərək müsabiqədə iştirak edə bilərlər”.

“500-dən yuxarı bal toplayan bir neçə abituriyent ali məktəbə daxil olmayıb”

**Məleykə Abbaszadə vurğulayıb ki, bu il I və IV qrupda 500-dən çox bal toplayan bir neçə abituriyent ali təhsil müəssisələrinə qəbul ola bilməyib.** O bildirib ki, IV ixtisas qrupu üçün bu hal təbiidir. Çünki abituriyent tibb ixtisası üzrə yalnız bir yer yazdığı üçün ali məktəbə daxil ola bilmir: ”Amma bu il üçün Tibb Universitetində yeni açılan ixtisaslar da var ki, onların keçid balı aşağıdır. Əgər həmin şəxslər bu ixtisasları seçsəydilər, kənarda qalmazdılar. Sevindirici hal odur ki, bu il Bakı Dövlət Universitetində Biotexnologiya ixtisası açılıb və həmin yer üçün axın yüksək olub. Burada keçid balı Tibb Universiteti ilə eyni səviyyədə olub. Bu o deməkdir ki, gənclərimiz müasir ixtisaslar barədə məlumatlıdırlar və düzgün addım atırlar”.

**İsmayıl**

# Avropa İttifaqı regiona dayanıqlı sülh gətirəcək

## Brüssel görüşündə Ermənistan tərəfinin müqavimət cəhdləri nəticəsiz qaldı

**Avqustun 31-də Belçikanın paytaxtı Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü keçirildi. Bu, tərəflər arasında növbəti üçtərəfli görüş idi. Ermənistanın müqavimətinə və Brüssel görüşündə real nəticələrin əldə olunmasına maneçilik törətmək cəhdlərinə baxmayaraq, Prezident İlham Əliyev Şarl Mişelin vasitəçiliyi ilə konkret nəticələr əldə etdi. Azərbaycan və Ermənistan Xarici İşlər nazirliklərinin xətti ilə bir ay ərzində sülh razılaşmasının mətni üzərində iş aparılması üçün işçi qrupların yaradılması razılaşdırıldı.**

Danışıqların çoxillik təcrübəsi erməni tərəfinin gündəlikdə dayanan məsələlərin həllinə əngəl yaratmaq və ya ən azından prosesi yubatmaq üçün var gücü ilə çalışdığını artıq dəfələrlə sübuta yetirib. Nikol Paşinyanın rəhbərliyindəki Ermənistanın da Brüssel səfəri öncəsində eyni əhval-ruhiyyədə olması bu baxımdan şübhə doğurmurdu. Ancaq Brüssel görüşü növbəti dəfə erməni tərəfinin müqavimət cəhdlərini və real nəticələrin əldə olunmasına əngəl yaratmaq istəyini nəticəsiz qoydu. Azərbaycan dövlətinin bütün dünyada formalaşdırdığı müsbət imic, dövlət başçısının şəxsi nüfuzu və Azərbaycanın Avropa ilə qurduğu hərtərəfli və qarşılıqlı marağa əsaslanan münasibətlər bu prosesdə açar məqam rolunu oynadı. Əvvəlki müzakirələr nəticəsində də ciddi nəticələr əldə olunmuşdu. Yekun sülh müqaviləsi istiqamətində görülən işlər Azərbaycanın diplomatik uğurunun növbəti təzahürü olmaqla yanaşı, Aİ-nin və şəxsən Şarl Mişelin vasitəçiliyinin nəticəsidir. Görüşdən sonra Prezidentin köməkçisi Hikmət Hacıyev sosial şəbəkə hesabında Aİ-nin vasitəçilik səylərini yüksək qiymətləndirən paylaşım etdi: ”Biz Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin komandasının Ermənistan və Azərbaycan arasında ikitərəfli sülh müqaviləsi danışıqlarına və dövlətlərarası normallaşmaya kömək etməsini yüksək qiymətləndiririk. Prezident İlham Əliyev bununla bağlı Azərbaycanın mövqeyini dəfələrlə bəyan edib”. Qeyd etdiyimiz kimi, bu qiymət təsadüfi deyil. Çünki artıq olmayan Minsk qrupunun otuz il ərzində əldə edə bilmədiyi nəticələrə Avropa İttifaqı qısa müddətdə nail olmağı bacardı. Şübhəsiz, bu həm də Aİ-nin Azərbaycana verdiyi dəyər və ölkəmizin geosiyasi rolu ilə bağlıdır. Tərəflər arasında müzakirə edilən sülh müqaviləsi Azərbaycan tərəfindən irəli sürülən və Ermənistanın qəbul etdiyi beş prinsip üzərində qurulur. Onu da vurğulamaq lazımdır ki, Belçika görüşündəki yeni sənəddə Qarabağ mövzusu, ATƏT-in Minsk qrupu barədə heç nə yoxdur. Yəni Aİ üçün də artıq sözügedən qrup ləğv edilmiş format olaraq qəbul edilir və onun bərpa edilməsi ilə bağlı cəhdlərə məhəl belə qoyulmur. Görünən odur ki, Avropa İttifaqı yekun sülh müqaviləsinin imzalanmasında, beləliklə, regionda sabitliyin təmin olunmasında maraqlıdır.



İrəvanın öhdəliyi yerinə yetirməsi müzakirə olunub və razı salınıb

Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozep Borrell ”Twitter”də görüşə münasibət bildirib. O deyib ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi ilə bağlı irəliləyiş üçün işləməyə davam etmək vacibdir: ”Aİ Şurasının Prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında keçirilən dördüncü görüşü alqışlayıram. Sülh müqaviləsi ilə bağlı irəliləyiş üçün işləməyə davam etmək, humanitar və əlaqələnmə sahələrində səyləri davam etdirmək vacibdir. Aİ sülhsevər, təhlükəsiz və firavan Cənubi Qafqazı dəstəkləməkdə davam edir”.

**Millət vəkili Nəsib Məhəməliyev deyib ki, bu görüşü Prezident İlham Əliyevin uğuru, Azərbaycan diplomatiyasının aktivinə yazmaq olar.** Deputatın sözlərinə görə, ümumiyyətlə, Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüşlər, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində təşkil olunmuş digər formatlardan daha effektiv olmaqla, ölkəmizin maraqlarına tam cavab verir: ”Çətinliklə də olsa, hər görüşdən sonra müəyyən irəliləyişlər əldə olunur. Prezidentin köməkçisi Hikmət Hacıyevin görüşdən sonra sosial şəbəkədə yazdığı qeydlər Şarl Mişelin fəaliyyətinə verilmiş qiymət olmaqla yanaşı, Avropa İttifaqının bölgədə dayanıqlı sülhün əldə olunmasında maraqlı olduğunu göstərir. Eyni zamanda, bu yaxınlarda ABŞ və Fransanın bədnam Minsk qrupunu reanimasiya etmək cəhdlərinə ən gözəl cavabdır. Dövlət katibi tərəfindən Qafqaz məsələləri üzrə xüsusi nümayəndənin təyin olunması və Fransa ilə birgə fəaliyyətlərin uzlaşdırılması Ermənistanda yeni bir coşqunluq yaratmışdı. Ermənilər, həmin dövlətlərə ümidlə, yenidən Azərbaycan əleyhinə mitinqlər təşkil etməyə başlamışdılar. Diqqətçəkən əsas məqamlardan biri xarici işlər nazirlərinin bir ay ərzində sülh sazişinin layihəsinin mətni üzərində iş aparılması üçün işçi qruplarının yaradılmasıdır. Sərhədlərin delimitasiya, demarkasiya proseslərinə başlanılmasıdır”.

Parlament üzvünün sözlərinə görə, digər məqam ilk dəfə erməni və Azərbaycan xalqlarının sülhə, barışığa hazırlanması barədə çağırışların səslənməsidir: ”Etiraf etmək lazımdır ki, bu olduqca ağır, psixoloji baxımdan mürəkkəb prosesdir. Ancaq düşünürəm ki, nə qədər çətin olsa da, xalqlarımız bu baryeri aşmalı, düşmənçiliyi gələcək nəsillərə saxlamamalıdır. Son 30 ildə baş verənlərdən sonra dostluq münasibətlərinin yaranması qeyri-mümkündür. Lakin əməkdaşlığa, birgə yaşayışa məhkumuq. Azərbaycan dördüncü Brüssel görüşünə həm hərbi, həm də siyasi baxımdan üstün tərəf kimi yollanmışdı və öz mövqeyini qorudu. Danışıqlar, daha əvvəl Azərbaycan Prezidentinin irəli sürdüyü  beş prinsip üzərində, beynəlxalq hüququn normalarına uyğun  keçirildi. Bütün bunlar o deməkdir ki, ölkəmizin Avropa İttifaqı üçün əhəmiyyəti getdikcə artmaqdadır və etibarlı, önəmli tərəfdaşdır”.

**Siyasi şərhçi Asif Nərimanlı da vurğulayıb ki, bundan öncə Brüsseldə eyni anlaşma əldə olunmuşdu, lakin İrəvan heç bir praktiki addım atmadı. İndi məsələ yenidən gündəmdədir:** ”Görünür, İrəvanın öhdəliyini yerinə yetirməsi müzakirə olunub və razı salınıb. Lakin Ermənistanın razılaşma ilə bağlı praktiki mərhələdə addım atacağı yenə şübhəlidir. Hərçənd, yekun bəyanat deməyə əsas verir ki, Qərb masasındakı müzakirələrdə də Bakının gündəliyindən kənara çıxılmır. Postmünaqişə reallığı Avropa İttifaqı tərəfindən qəbul olunur. Bu, Qərbdə Minsk qrupunu diriltmək cəhdlərinə qarşı müsbət alternativdir. Anlaşma Azərbaycanın öhdəliklərini yerinə yetirməyən Ermənistana qarşı istənilən addımını legitimləşdirir. Tərəflər noyabrın sonuna qədər eyni formatda görüşməyə də razılaşıb. Ermənistan Moskva masasında nəsə əldə etməyə çalışacaq. Lakin burada da gündəliyin təxmini eyni olması İrəvanın ”çıxış yolu” axtarışını nəticəsiz edir”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;



# Özünəməşğulluq proqramları işsizliyin səviyyəsini azaldacaq

## Bu kimi proqramların icrasında məqsəd ilk növbədə işsiz vətəndaşlarımızı sahibkarlara çevirmək və onlara dəstək göstərməkdir

**Azad sahibkarlığın və bütövlükdə liberal iqtisadiyyatın formalaşması iqtisadi siyasətin əsas prioritetlərindəndir. Ölkə Prezidenti tərəfindən təsdiq olunmuş ”2030: sosial iqtisadi inkişafa dair milli prioritetlər” gizli iqtisadiyyatın məhdudlaşdırılmasını, eyni zamanda liberal iqtisadiyyatın genişləndirilməsini özündə ehtiva edir. Bu da ondan xəbər verir ki, bu zamana qədər olduğu kimi, hələ bundan sonrakı illərdə də bu istiqamətdə islahatların davam etdiriləcəyi gözləniləndir.**

Azərbaycanda liberal iqtisadiyyat rəqabətli mühitin yaranmasına ciddi təsir göstərir. Rəqabət mühiti dedikdə isə inhisarçılıq olmadan mümkün şəraitdən, imkanlardan bərabər şəkildə istifadə nəzərdə tutulur. Bu da ölkəmizdə tam şəffaf şəkildə təmin edilib. Sahibkarlıq üçün şərait, işgüzar mühit hamı üçün eyni dərəcədə təmin olunur. Rəqabət mühiti olmadığı təqdirdə nə azad sahibkarlıqdan, nə vətəndaşların rifah halının yüksəlməsindən, nə də hüquqlarının qorunmasından söhbət gedə bilər. Azad sahibkarlığın və liberal iqtisadiyyatın təmin edilməsi güclü iqtisadiyyatı və dövlətin hərbi-siyasi potensialını da artırır. Beləcə iqtisadiyyatı dirçələn ölkə diktə edən tərəfə çevrilir. Elə bu səbəbdən də Azərbaycan hökumətinin qarşıya qoyduğu vəzifələr arasında azad sahibkarlığın və liberal iqtisadiyyatın təşkili məsələsi önəmli yer tutur. Dövlətin bu istiqamətdə bir sıra vacib addımlar atdığı hər kəsə bəllidir. Ələt Azad İqtisadi Zonasının yaradılması, sahibkarlara dövlət tərəfindən güzəştli kreditlərin və subsidiyaların verilməsi, eləcə də kiçik və orta sahibkarlığın inkişafı üçün münbit şəraitin yaradılması bu dəstəyin əyani nümunəsidir. Bu istiqamətdə aparılan işlərin bir qismi kimi həm institusional islahatları, həm də qanunvericiliyə edilən dəyişiklikləri qeyd etmək olar. Vergi Məcəlləsinə edilən 200-dən çox dəyişiklik vergi ödəmə sistemini daha da sadələşdirib. Bütün bunlar sahibkarlığın daha şəffaf iqtisadiyyata inteqrasiya olunmasına və inkişafına öz töhfəsini verib. Hazırda sahibkarlar dövlətə vergi ödəməklə, heç bir müdaxilə olmadan və tam sərbəst şəkildə öz fəaliyyətini qurmaq imkanı əldə edib. Son illər Azərbaycanda sahibkarların qeydiyyatdan keçməsi məsələsi də xeyli sadələşdirilib. Bir pəncərə sistemi vasitəsilə qısa zaman kəsiyində hər bir şəxsin öz sahibkarlıq fəaliyyətini rəsmiləşdirmək imkanı var. Bütün bunlarla yanaşı Azərbaycanda sözügedən sahənin inkişafı istiqamətində dövlət proqramları həyata keçirilir. Sahibkarlığın İnkişafı Fondu yaradılıb. Bu fond vasitəsilə sahibkarlıq subyektlərinə güzəştli şərtlərlə kreditlər təqdim olunur. Həmçinin, onların sərbəst fəaliyyəti üçün bu günə kimi müəyyən ərazilərdə bir neçə sənaye zonaları, sənaye məhəllələri istifadəyə verilib. Həmin sənaye obyektlərində, istehsal sahələrinin qurulmasında sahibkarlara uzunmüddətli vergi güzəştləri tətbiq olunur. Həmçinin bu zonalarda onlara səmərəli infrastruktur təqdim edilir. Sahibkarlıq subyektlərinin azad və sərbəst fəaliyyətinin təmin edilməsi üçün dövlət tərəfindən tətbiq edilən proqramları vurğulamaq yerinə düşər. Məsələn, aqrar sahənin inkişafı məqsədilə bu sektorda fəaliyyət göstərən hər bir sahibkar torpaq vergisi istisna olmaqla digər bütün vergilərdəna azad olunub. Ölkədə investisiya proqramları da uğurla icra olunur. Bu investisiya proqramında qeydiyyatdan keçən sahibkarlıq subyektləri bəzi vergilərdən azad edilib. İxracın təşviqi proqramı tətbiq olunur ki, bununla da ölkəmizdə istehsal edilən məhsulların ixracına görə həmin sahibkarlara dövlət büdcəsindən əlavə vəsaitlər ödənilir. Bu addım ixracyönümlü məhsulların stimullaşdırılması istiqamətində görülən ən vacib tədbirlərdən biri kimi qiymətləndirilə bilər. Azərbaycan sahibkarlıq fəaliyyəti üçün ən optimal mühit formalaşdırmış ölkələrdən biri hesab olunur. Çünki sahibkarlıq subyektləri dövlətin əsas aparıcı qüvvəsidir.

Sahibkarlığın inkişafı istiqamətində atılan mühüm addımlardan biri də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Dünya Bankının birgə icra etdiyi ”Azərbaycanda məşğulluğa dəstək” layihəsi çərçivəsində reallaşıb. Avqust ayında həssas qruplara aid 1000-dək işsiz şəxs üçün kiçik bizneslər yaradılıb. Nazirlikdən verilən məlumata görə, layihənin məqsədi işsiz kimi qeydiyyatda olan əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, keçmiş məcburi köçkünlər, ünvanlı dövlət sosial yardımı alanlar, qadınlar, gənclər və həssas qruplardan olan digər şəxslərin özünüməşğulluq üzrə kiçik biznesə, layiqli məşğulluğuna çıxışına şərait yaradılmasıdır. Vurğulanıb ki, bu ilin ötən dövründə proqram çərçivəsində 4800-dək işsiz şəxs üçün kiçik bizneslər qurulub. Layihəyə cəlb olunan işsiz şəxslərə 29 iqtisadi fəaliyyət istiqaməti üzrə biznes zərflər təqdim edilib.

**Təşəbbüslərlə bağlı ”Şərq”ə danışan millət vəkili Vüqar Bayramov deyib ki, özünəməşğulluq Azərbaycanda həyata keçirilən ən aktiv proqramlardan biridir. Deputatın sözlərinə görə, bu kimi proqramların icrasında məqsəd ilk növbədə işsiz vətəndaşlarımızı sahibkarlara çevirmək və proqram çərçivəsində onlara dəstək göstərməkdir:** ”Son illər kifayət qədər vətəndaşlarımız məhz bu proqramdan faydalanaraq öz bizneslərini qurublar. Təbii ki, burada söhbət sadəcə aqrar sektordan getmir. Digər sahələrdə də biznesin inkişafı və qurulması prioritet hesab olunur. Statistika da göstərir ki, məhz bu istiqamətlərdə, o cümlədən qeyri kənd-təsərrüfatı sahələrində də müraciətlərin sayında artım var. Sözsüz ki, özünəməşğulluq proqramları işsizliyin səviyyəsinin və sayının azalmasına təsir göstərən ən mühüm faktorlardandır. Çünki fərqli proqramların reallaşması bütövlükdə məşğulluğun təmin edilməsinə və işsizlərin sayının əsaslı surətdə azaldılmasına hədəflənmiş prioritetlərdəndir. Ona görə də özünəməşğulluğun dairəsinin genişlənməsi və proqrama daha çox vətəndaşın cəlb edilməsi nəticə etibarı ilə kiçik və orta sahibkarlığın da inkişafına xüsusi töhfə verir”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Ermənistan artıq sülh gündəliyini qəbul edib

## Paşinyan etiraf edir ki, xalq regionda tezliklə hərtərəfli sülhün bərqərar olmasını istəyir

**Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin iclasında Brüsseldə keçirilən üçtərəfli görüşü şərh edib. Baş nazir deyib ki, Ermənistan hökuməti sülh gündəmini qəbul edib və bu gündəmi həyata keçirmək üçün tərəflərdə qətiyyət lazımdır. O xatırladıb ki, görüşdə geniş və çətin müzakirələr aparılıb: ”Başa düşməliyik ki, bu, asan deyil, mümkün həll yolları zahirdə görünmür.**

Ardıcıl işi davam etdirməliyik. Çünki bizim həm qərarımız, həm də xalqın iradəsi ondan ibarətdir ki, regionda tezliklə hərtərəfli sülh bərqərar olsun. Görüşlə bağlı başqa təfərrüatlar yoxdur, çünki razılaşdığımız hər şey qısa şəkildə təqdim olunub”.

Xatırladaq ki, Brüssel görüşündə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi üzrə substantiv işi aktivləşdirmək barədə razılığa gəlinib.

**Politoloq Azər Qasımov ”Şərq”ə açıqlamasında bildirib ki, Ermənistanda belə bir fikir formalaşıb ki, İrəvan hökumətinin bu problemin həlli ilə bağlı heç bir planı yoxdur. Ekspertə görə, hətta erməni ictimaiyyəti arasında ”pis plan yoxdan yaxşıdır” düşüncəsi hökm sürür:** ”Bunun özü göstərir ki, Ermənistan siyasi proseslərin arxasınca sürünməklə məşğuldur. Paşinyanın son bəyanatı da bunu sübut edir. Ermənistan dalana dirənib. Ümid etdiyi Rusiya, Qərb ölkələri belə onlara çıxış yolu göstərə bilmir. Hazırda vasitəçilərin vermək istədikləri dəstək isə Ermənistanı daha çox dalana dirəyir. Azərbaycanın ardıcıl həmlələri Ermənistanda elə bir mühit yaradıb ki, istər hakimiyyət, istərsə də toplum gələcəyin necə olacağı barədə sağlam fikir yürüdə bilmirlər”.

***"Ermənistan tərəfi daha çox itirməmək üçün Azərbaycanın təklif etdiyi və hələlik Ermənistanı da qane edən 5 təklifin həyata keçirilməsi üçün çalışmalıdır"***

**A.Qasımova görə, Paşinyanın bundan sonra hansı addım atacağı Azərbaycanın nə deməsindən asılı olacaq:** ”Ermənistan tərəfi daha çox itirməmək üçün Azərbaycanın təklif etdiyi və hələlik Ermənistanı da qane edən 5 təklifin həyata keçirilməsi üçün çalışmalıdır. Bunlar beynəlxalq hüququn qəbul etdiyi təkliflərdir və hamı tərəfindən qəbul edilir. Paşinyanın rəsmi Bakı ilə əməkdaşlıq etməkdən başqa çıxış yolu yoxdur. Bunun əksi Ermənistanın dövlət kimi yox olmasına gətirib çıxara bilər. Azərbaycanla müsbət münasibətlər qurmaq Ermənistan dövlətinin ayaqda qalması üçün tək çıxış yoludur”.

**İsmayıl Qocayev**

# Razılıq var, iş də görünməlidir

## Avropa İttifaqı Ermənistana təzyiqləri gücləndirməlidir



**Avqustun 31-də Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Ş.Mişel arasında görüş keçirilib. Danışıqlar zamanı bir sıra konkret nəticələrə nail olunub. Tərəflər arasında Xarici İşlər Nazirliyi xətti ilə sülh sazişinin mətni üzərində işə başlamaq üçün qruplar yaratmaq barədə razılıq əldə olunub.**

İmzalanmış yeni sənəddə nə Qarabağ məsələsi, nə də ATƏT-in Minsk qrupu qeyd edilib. Bu da Minsk qrupunun formatının öz qüvvəsini itirdiyi anlamına gəlir. Görünən odur ki, bundan sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində əsas vasitəçi Aİ olacaq. Eyni zamanda sülh müqaviləsi rəsmi Bakının irəli sürdüyü və rəsmi İrəvanın qəbul etdiyi məlum beş prinsip əsasında qurulacaq.

**Görüş barədə ”Şərq”ə danışan Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov bildirib ki, Brüssel görüşündə bundan əvvəl alınan qərarların davamı olaraq mühüm addımlar atılıb:** ”Ən önəmlisi Azərbaycan və Ermənistan arasında sülh məsələsi ilə bağlı danışıqların konkret bir məcraya keçməsində ortaq razılığın əldə olunmasıdır. Nəzərə almaq lazımdır ki, yaxın zamanlarda məhz ötən Brüssel görüşünün nəticələrinə uyğun, Azərbaycan və Ermənistan XİN başçılarının sülhlə bağlı danışıqlar aparacağı gözlənilir. Digər bir vacib məsələ delimitasiya və demarkasiya işlərinin sürətləndirilməsi barədə qərarlardır. Artıq delimitasiya üzrə Dövlət Komissiyasının da sonrakı görüşlərinin təkcə Moskvada deyil, Brüsseldə də gerçəkləşəcəyi vurğulanıb. Eyni zamanda minalanmış ərazilərlə bağlı, həmçinin Birinci Qarabağ müharibəsində əsir və itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi problemləri var. Avropa İttifaqı bundan əvvəl keçirilən üç Brüssel görüşündə də sözügedən məsələni Ermənistana şərt kimi qoydu. Rəsmi İrəvan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. Lakin təəssüf ki, Ermənistan hazırkı zamana qədər lazımi davranışlar sərgiləməyib. Ümid edirəm ki, növbəti görüşdən sonra bu kontekstdə Ermənistan çevik və sürətli addımlar atacaq. Bunun üçün Aİ Şurası Rusiyadan fərqli olaraq, rəsmi İrəvana daha sərt və praktiki təzyiqlər edəcək”.

**Sücayət Mehti**

**Elan**

Abbasov Ramazan Camal oğluna məxsus ”Veteran” Həvəskar Basketbol İdman Klubu İctimai Birliyi komandanın 28.08.2022-ci il tarixli qərarı ilə ləğv edilmişdir.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2490

# Türkiyə müasir müharibə konsepsiyasını dəyişir

## "Qızıl alma" gələcəkdə xeyli bahalı olan F-16 və ya F-35-in bir çox xüsusiyyətlərini mənimsəyə bilər



**Türkiyənin "Baykar Texnoloji" şirkəti ilk dəfə olaraq "Qızıl alma" adlı zərbə pilotsuz təyyarəsini nümayiş etdirib. Pilotsuz reaktiv qırıcı olan bu modeli yaratmaq üçün konstruktorlara 12 il vaxt lazım olub. "Baykar" şirkətinin rəhbəri Selçuk Bayraktar mart ayında prototipin istehsalına başlanıldığını açıqlayıb.**

Ötən gün isə "Bayraktar Qızıl alma" ictimaiyyətə təqdim edilib. Pilotsuz təyyarə turboreaktiv mühərrik, inkişaf etmiş süni intellekt sistemi ilə təchiz olunub. Mütəxəssislərin dediyinə görə, yeni PUA "aqressiv manevr" qabiliyyətinə malikdir və çətin nəzərə çarpır. Uçuş üçün ona minimum uzunluqda zolaq lazımdır ki, bu da ona məsələn, gəminin göyərtəsindən istifadə etməyə imkan verəcək. "Bayraktar Qızıl alma"nın maksimum uçuş çəkisi təxminən 6000 kq-dır. Bunun 1500 kq-dan çoxu faydalı yükün payına düşür, sursat-yükqaldırma qabiliyyəti isə 1000 kq-dır. Türkiyə şirkəti 2023-cü ildə reaktiv "alma"ların kütləvi istehsalına başlamaq niyyətindədir.

**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gunduz vurğulayıb ki, reaktiv "Qızıl alma" hətta müasir müharibə konsepsiyasına da yenidən baxmağı tələb edəcək. Ekspert "Qızıl alma" F-16 və ya F-35-lərlə rəqabətə girə biləcəkmi" sualını belə cavablandırıb:** "Qızıl alma" gələcəkdə xeyli bahalı olan F-16 və ya F-35-in bir çox xüsusiyyətlərini mənimsəyə bilər. Hətta "Akıncı"nın faydalı yükgötürmə qabiliyyəti F-16 səviyyəsindədir. Bir çox inkişaf etmiş ölkələrin yuxusuna haram qatan bu reaktiv qırıcının gələn il istehsalı gözlənilir. Bu silah qırıcılar üçün tam yeni nəsil hesab olunur. "Qızıl alma"nın Ukraynada qurulacaq Baykar zavodunda istehsalı da planlaşdırılır. Mühərriki və elektronikasının müəyyən hissələri, proqram təminatları Ukraynada istehsal olunacaq. Məlum olduğu kimi 2021-ci ildə Türkiyə və Ukrayna arasında imzalanan memorandum və cari ilin fevralında imzalanan müqaviləyə əsasən, artıq ötən ay "Baykar"ın Ukraynada zavodunun inşasına başlanıb. Ötən ay "Baykar"ın rəhbəri Haluk Bayraktar da Ukraynada olub və açıqlamalar verib. Bu zavodda gələn ildən etibarən "Bayraktar-TB2", "Bayraktar Akıncı" və "Bayraktar "Qızıl alma" istehsalı nəzərdə tutulub. Maraqlıdır ki, bir müddət öncə Ukraynadan qayıdan Haluk Bayraktar heç bir Bayraktar məhsulunun Rusiyaya satılmayacağını da açıqlamışdı".

**İsmayıl Qocayev**

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində 3 min 890 nəfər Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3 min 171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir.**



# Ermənilər itkin düşmüş azərbaycanlılarla bağlı faktları gizlədir

## Bütün bunlar insan haqları və beynəlxalq hüquqa ziddir

Mülki şəxslərdən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri yaşlı insanlar olub. Bu kontekstdə Azərbaycan da itkin düşmüş vətəndaşlar və onların ailə üzvləri ilə bağlı beynəlxalq hüquq və milli qanunvericiliyin tələblərinə uyğun olaraq bütün müvafiq tədbirləri həyata keçirir. Hazırkı şəraitdə itkinlərin taleyinin müəyyən edilməsinə real maneə, şübhəsiz ki, Ermənistan tərəfidir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, rəsmi İrəvan itkin düşmüş azərbaycanlılar haqda məlumatları təqdim etmədiyi kimi, onların nəşinin harada olduğunu da demir. Analitik bildirib ki, işğaldan azad edilmiş ərazilərdə çoxsaylı minaların olması da rəsmi Bakının axtarış işlərini gec aparmasına səbəb olur:** "İrəvan hər nə qədər itkin düşmüş Azərbaycan vətəndaşları ilə bağlı onlarda məlumatların olmadığını desə də, aydındır ki, məlumatlar məqsədli şəkildə gizlədilir. Ermənilər Birinci Qarabağ müharibəsi zamanı əsir götürdükləri azərbaycanlıları məcburi şəkildə işlədib, cinsi istismara məruz qoyub, insan alverinə cəlb ediblər. Dəhşətli işgəncələrlə qətlə yetirdikləri insanları toplu məzarlıqlarda basdırıblar. Bütün bunlar insan haqları və beynəlxalq hüquqa ziddir. Ermənistan tərəfi bu gün bu faktların ortaya çıxmasını istəmir və buna görə də həmin şəxslərlə bağlı məlumatları gizlədir. Lakin bütün hallarda həqiqət gec-tez üzə çıxır. 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə aparılan qazıntı işləri nəticəsində Xocalının Fərrux, Xocavəndin Edilli, Kəlbəcərin Başlıbel kəndində kütləvi məzarlıqlar aşkarlanıb. Kütləvi məzarlıqlar erməni vəhşiliyinin əyani sübutudur".

**İsmayıl**



# İranlı general Azərbaycana daxil olan kimi həbs olunacaq

## Əziz Əlibəyli: "Mənsur Həqiqətpur bizim hərbi hissələrə gedərək Azərbaycana aid hərbi məntəqələrin yerlərini müəyyənləşdirib və gizli ermənilərə ötürüb"

**"İran mediasının iddiasına görə, "Birinci Qarabağ müharibəsində İran generalı Mənsur Həqiqətpur kimi komandirlərinin dəstəyi olmasaydı, Ermənistan Bakını da ələ keçirərdi". Bu barədə beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib.**

Analitik bildirib ki, əslində İran parlamentinin milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədr müavini, general Mənsur Həqiqətpurla bağlı Azərbaycanda cinayət işi qaldırılıb. Onun sözlərinə görə, Həqiqətpur bizim ölkənin ərazisinə daxil olduğu halda həbs ediləcək: "İran ordusunun generalı olan M.Həqiqətpur 1993-cü ildə Azərbaycanda fəaliyyət göstərib. O bizim hərbi hissələrə gedərək Azərbaycana aid hərbi məntəqələrin yerlərini müəyyənləşdirib və gizli ermənilərə ötürüb. Bununla bağlı 1994-cü ildə Azərbaycanın Milli Təhlükəsizlik Naziriyində cinayət işi qaldırılıb. Ona görə də Həqiqətpur Azərbaycana gələ bilmir, çünki gəldiyi təqdirdə həbs olunacaq".

**Ə.Əlibəyli vurğulayıb ki, Həqiqətpur o vaxt İranın burada səlahiyyətli hərbi nümayəndəsi olub:** "İran İslam İnqilabı Keşikçiləri Korpusunun generalı, peşəkar kəşfiyyatçıdır. Həqiqətpur Bakının "8-ci kilometr" ərazisində Naxçıvani küçəsi, ev 38 a, mənzil 36-nı 1992-ci il mayın 27-dən kirayələyib, məlumatları da oradan ötürüb. O vaxt onunla çalışan insanların izahatları da var, xeyli fakt toplanıb. Onların arasında Azərbaycanın bəzi regionundan, o cümlədən Nardarandan olanlar da var. Onları özü ilə İrana aparıb gətirirmiş. Həmin şəxslər özləri də etiraf edirlər ki, o vaxt Həqiqətpurun dəstəsi İranda onlara təlim keçəndə o təlimlərdə ermənilər də iştirak ediblər. Təlimlər isə Azərbaycana qarşı təxribatlar həyata keçirməkdən ibarət olub".

**İsmayıl**

# Riyaziyyat hüquqdan önə keçib

## Elmin Nuri: "İndi az bal toplayan abituriyentlər müəllimlik ixtisasını seçmək istəsələr də buna balları çatmayacaq"



**Bu il ilk dəfə BDU-nun Riyaziyyat müəllimliyi ixtisası üzrə keçid balı həmin universitetin hüquq fakültəsinin keçid balından daha yüksək olub. Bu barədə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə məlumat verib. Sədr bu il qəbul prosesində müəllimliyə daha çox diqqət yetirildiyini qeyd edib:**

"Bu, yeni nəslin müəllimliyə olan marağının nə qədər yüksək olduğunu göstərir. Qəbulun nəticələri bizə bunu deməyə əsas verir ki, müəllimliyə maraq daha da artır. Müəllimlik ixtisasına qəbul olanların əksəriyyəti yüksək bal toplayanlardır. Yəni gələcək üçün savadlı müəllimlər yetişir".

**AzEdu.az təhsil portalının baş redaktoru Elmin Nuri bu barədə "Şərq"ə danışarkən bildirib ki, burda diqqət edilməli olduğumuz bir sıra məqam var:** "Keçid ballarının müəyyənləşməsi müəyyən kriteriyalara əsaslanır. Məsələn, BDU-nun riyaziyyat müəllimliyi ixtisası birinci, hüquqşünaslıq isə üçüncü qrupdadır. Bu il birinci qrupda rəqabət üçüncü qrupdakından çox idi. Keçid ballarının müəyyən olunması, əvvəla, həmin ixtisas üçün ayrılan plan yerlərindən asılıdır. Ola bilsin ki, riyaziyyat müəllimliyinə ayrılan plan yerləri hüquqşünaslığa ayrılan plan yerlərindən daha az olub.

İkinci amil rəqabət meyarıdır. İxtisas seçimində riyaziyyat müəllimliyini qeyd edən abituriyentlərin sayı üçüncü qrupda hüquqşünaslıq ixtisasını qeyd edənlərin sayından hədsiz dərəcədə çox olub. Hər il ixtisaslara keçid balları ixtisas seçimi zamanı həmin ixtisasları qeyd edən və universitetlərə qəbul olan abituriyentlərin ümumi bal göstəricisinə görə müəyyən olunur. Buna görə də bu il riyaziyyat müəllimliyinin keçid balı hüquq fakültəsininkini üstələdi. Bu o demək deyil ki, müəllimliyə aid olan bütün ixtisasların da keçid balları digər ixtisasların keçid ballarını üstələyəcək. Elə olsa, əlbəttə ki, sevinərik".

**E.Nuri diqqətə çatdırıb ki, bu və bundan öncəki illərdə müəllimlik ixtisasını seçən abituriyentlərin bal göstəriciləri daha yaxşı olub:** "Ötən il Pedaqoji Universitetin ibtidai sinif müəllimliyinə 600-dən yuxarı balla daxil olanlar var. Əgər ibtidai sinif müəllimliyinə belə yüksək balla daxil olanlar varsa, digər kimya, biologiya, tarix ədəbiyyata da yüksək balla qəbul olunanların sayı daha çox olacaq. Çünki biz həmişə ibtidai sinif müəllimliyinə ən sonuncu ümid yeri kimi baxmışıq. Sizi əmin edim ki, müəllimlik ixtisası artıq bu rolu oynamır. Hardasa yeddi-səkkiz ildir, qəbul prosesində belə tendensiya müşahidə olunmur. İndi az bal toplayan abituriyentlər müəllimlik ixtisasını seçmək istəsələr də buna balları çatmayacaq".

Onun sözlərinə görə, müəllimlik ixtisasına maraq yaradan səbəblərdən biri də müəllimlərin işə qəbul müsabiqəsidir: "Bu müsabiqəyə qatılanların da çox cuzi bir hissəsi işlə təmin oluna bilirlər. Hazırda bizim universitetlərdə müəllimlik ixtisasına ayrılan plan yerləri əmək bazarı ilə qeyri-mütənasibdir. Bu da bir qədər problemli məsələdir".

**Günəş Mərd**



# "Azərbaycan-İtaliya təhsil əlaqələrinə ehtiyac var"

## "İmzalanan saziş dövlətlər arasındakı əlaqələrə əlavə dividendlər gətirəcək"

**Romada İtaliya-Azərbaycan universiteti yaradılır. Sentyabrın 1-də Prezident İlham Əliyev Romada yeni universitetin yaradılması ilə bağlı sənədlərin mübadiləsi mərasimində çıxış edib.**

Dövlət başçısı bildirib ki, bugünkü mərasim Azərbaycan səfirliyinin yeni binasında keçirilib: "Çox şadam ki, bu binada keçirilən ilk tədbir məhz təhsil sahəsinə aiddir. Bu gün İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır. Təhsil sahəsində biz yeni genişmiqyaslı əməkdaşlığa başlayırıq. İki il bundan əvvəl İtaliyada dövlət səfərində olarkən bu təkliflə çıxış etmişdim ki, İtaliya-Azərbaycan universiteti yaradılsın. İtaliya rəhbərliyi də bunu alqışladı və qısa müddət ərzində artıq biz praktiki fəaliyyətə başlayırıq".

**İtaliya-Azərbaycan universitetinin yaradılmasıyla bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov "Şərq"ə danışıb. Onun sözlərinə görə, həm ali təhsil pillələri, həm akademik tədqiqat sahəsi, tələbə mübadiləsi, ikili diplom proqramları üzərində əməkdaşlıq gerçəkləşəcək:** "ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Boloniya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair imzalanmış sazişdir. Azərbaycan üçün strateji tərəfdaş, dost ölkələrdən biri olan İtaliya ilə təhsil əlaqələrinə ehtiyac var. Bu, təhsil münasibətlərinə yeni format gətirəcək. Hər iki ölkənin vətəndaşları üçün faydalı müqavilədir. Praktiki tərəfləri gələcəkdə dövlətlərarası münasibətlərdə, eləcə də təhsilin uğurlu yer tutmasını şərtləndirəcək. İmzalanan saziş dövlətlər arasındakı əlaqələrə əlavə dividendlər gətirəcək".

**Aygün Tahir**

# Soyğunçuluq...

## "Kolorit" koloritsiz davranış sərgilədi

**Paytaxtdakı restoranların bəzilərində müştərilərdən əlavə ödəniş tələb edilir. Kafe və ya restoran menyusunda qiymətlərə baxıb yemək seçilir, yekun məbləğ gəldikdə isə hesablanılandan daha artıq çıxır. Üstəlik bu əvvəlcədən qonaqlara söylənilmir və axırda hesabı ödəyən müştəri "sürprizlə" qarşılaşır. Məlum hadisə tanınan "Kolorit kafe" restoranının Xırdalan filialında da yaşanıb.**

Redaksiyamıza daxil olan məlumata görə, müştəri doğum gününü qeyd etmək üçün restorana təşrif buyurub. Lakin nə sifariş verməsindən asılı olmayaraq, apardığı torta görə ondan əlavə ödəniş haqqı istənilib. Şikayətçinin dediklərinə əsasən, avqustun 31-də restoranda 40 manatlıq yemək sifariş verməsinə rəğmən, hesab 10 manat artıq gəlib. Bu barədə müştəriyə əvvəlcədən məlumat da verilməyib. Vay o günə ki, müştərinin yanında artıq pulu olmaya...

**İqtisadçı-ekspert Fuad İbrahimov kafe və restoranlarda qiymətlərin astronomik həddə olması barədə fikir bildirib. Onun sözlərinə görə, iqtisadi cəhətdən aparıcı ölkələr epidemiya ilə mübarizədə humanitar və fiskal siyasətdən istifadə etmişdi. Nəticədə dünyanı inflyasiya dalğası bürüdü:** "Kommunal xərclərdə, yanacaqda, daşınmalarda qiymətlər qalxdı. Bu da istənilən xidmətin dəyərinin bahalaşmasına fundament yaradır.

Uzun müddətdir ki, pandemiya dövründə daşınmaz əmlak sahibləri də müəyyən çətinliklərlə üzləşmişdi. Boşluqları aradan qaldırmaqdan ötrü daşınmaz əmlakın qiyməti yüksəldi.

Şəhərin mərkəzində icarəyə götürülən iaşə obyektləri həmin xərcləri aradan qaldırmaq üçün xidmətləri bahalaşdırır. Qiymətin stabilləşməsindən ötrü yeganə yol sağlam rəqabətdir. Küçədə bir neçə obyekt eyni qəbildən fəaliyyət göstərsə, şəffaf rəqabət qiymətlərin ucuzlaşmasına imkan verəcək".




**Bura tort apardınsa, əlavə 10 manat ödəməlisən**

*İqtisadçının qənaətincə, qiymətlər qalxdıqca keyfiyyət aşağı düşür. Bir çox iaşə obyektlərindən şikayətlər də çoxdur. Ümumi vəziyyət isə ürəkaçan deyil:* "Şəhərin mərkəzində iaşə obyektlərində inhisarçılıq, müştərilərin cibindəki pulların öz ciblərinə transfer edilməsi istiqamətində "işbazlıq" edilir.

Yəni "bir dəfəlik müştəridir, istifadə etmək lazımdır" baxışı gündəmə gəlir. Şəhərin müxtəlif yerlərində öz müştərilərinə hörmətlə yanaşma siyasəti də yürüdülür. Belə yanaşmalar üst-üstə gələndə faciəvi vəziyyət yaranır. Müvafiq dövlət orqanları tərəfindən nəzarətə götürülməsi bazar iqtisadiyyatı mühitində mümkün deyil. Xidməti göstərənlər sıradan insanlardır. Onlar dövlətə, məmurluğa birbaşa bağlılığı olmayan şəxslərdir. Azad bazar iqtisadiyyatında göstəriş vermək olmaz.

Sadəcə, biznes mühitində sağlam rəqabət yaradılmalıdır. Onda daha ucuz və keyfiyyətli xidmət göstərməyə üstünlük verəcəklər".

*P.S. Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.*

**Aygün Tahir**